**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ELMİN İNKİŞAFI FONDU**

---

Bakı şəhəri 21 iyul 2015-ci il

# Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2014-cü il üçün əsas qrant müsabiqəsi (EİF-2014-9(24)) çərçivəsində təqdim olunmuş kompleks elmi-tədqiqat proqramları üzrə layihələrin ekspertizasının nəticələri haqqında

## E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra "Elmin İnkişafı Fondu" adlandırılacaqdır) Azərbaycan Respublikasında təbiət, dəqiq, texniki, humanitar və ictimai elmlər sahəsində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli elmi-tədqiqat proqram və layihələrini və digər elmi tədbirləri (bundan sonra - layihələr) dəstəkləmək, aktual və müasir elmi problemlərin həlli ilə məşğul olan fiziki şəxslərin, bir elmi mövzu (problem) ətrafında müvəqqəti yaradılmış yaradıcı kollektivlərin, akademik və təhsil sistemlərində fəaliyyət göstərən elmi və digər qurumların (dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və s.) elmi fəaliyyətini stimullaşdırmaq və onlara əlavə yaradıcılıq imkanı yaratmaq məqsədilə cari müsabiqənin elmi prioritetlərinə uyğun olaraq keçirilmiş 2014-cü il üçün əsas qrant müsabiqəsi çərçivəsində (EİF-2014-9(24)) təqdim olunmuş kompleks elmi-tədqiqat proqramları üzrə layihələrin ekspertizasının nəticələrini

ELAN EDİR:

1. Elmin İnkişafı Fondu 2014-cü il üçün əsas qrant müsabiqəsinin keçirilməsi haqqında qərarını 29 dekabr 2014-cü il tarixində internet səhifəsində və kütləvi informasiya vasitələrində elan etmiş və qrant layihələrinin qəbulu üçün müddət olaraq 2015-ci il 5 yanvar – 27 fevral tarixlərini müəyyənləşdirmişdir. Bu müddət ərzində Elmin İnkişafı

Fondunun icraçı direksiyası qrant iddiaçılarına kömək məqsədilə 4 məsləhət seminarı təşkil etmiş, telefon və elektron-poçt vasitəsilə olan müraciətlərə cavab vermiş, ortaya çıxan suallara aydınlıq gətirmişdir.

2. Yuxarıda göstərilən müddət ərzində müsabiqəyə bütün növlər üzrə 178 layihə (o cümlədən, 19 kompleks elmi-tədqiqat proqramları üzrə layihə və 5 pilot layihə olmaqla) daxil olmuş və Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində müvafiq qeydiyyatdan keçirilmişdir. Layihələrin texniki və elmi ekspertizası işi təşkil olunmuşdur. Kompleks elmi-tədqiqat proqramları üzrə layihələrin ekspertizası işinə Elmin İnkişafı Fondunun daimi ekspertləri və yerli və xarici müstəqil elmi ekspertlər cəlb olunmuşdur.
3. Elmin İnkişafı Fondunun icraçı direksiyası, daimi və müstəqil elmi ekspertlər təqdim olunmuş kompleks elmi-tədqiqat proqramları üzrə layihələrin cari müsabiqənin elmi prioritetlərinə uyğunluq dərəcəsini müəyyənləşdirmiş, layihələrin elmi səviyyəsini, onların yerinə yetirilməsi imkanlarını və potensialını, gözlənilən elmi nəticələrini, mümkün tətbiq ehtimalını ekspertiza qaydalarına uyğun olaraq xüsusi sistem üzrə qiymətləndirmiş, həmçinin maliyyələşdirilmənin məqsədəuyğunluğu və həcmi barədə Elmin İnkişafı Fondunun Himayədarlar Şurası üçün rəylər, arayışlar və tövsiyələr hazırlamışdır.
4. Yekun sənədlər toplusuna Elmin İnkişafı Fondunun Himayədarlar Şurası tərəfindən baxılmış, ekspertiza qaydalarına uyğun olaraq kompleks elmi-tədqiqat proqramları üzrə layihələrin maliyyələşdirilmə həcmi barədə tövsiyələr müzakirə olunmuş və yekun qərar qəbul edilmişdir. Digər layihələr üzrə əlavə qərar qəbul ediləcəkdir.
5. 2014-cü il üçün əsas qrant müsabiqəsinin kompleks elmi-tədqiqat proqramları üzrə layihələr sırasından ümumi maliyyələşdirilmə həcmi **4200000** manat olmaqla **14** qalib layihə müəyyənləşdirilmiş və Elmin İnkişafı Fondunun müvafiq Qərarı ilə təsdiq olunmuşdur.
6. Bu elan verildikdən sonra müəyyənləşdirilmiş müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası ilə hər bir qalib layihənin rəhbəri arasında layihənin yerinə yetirilməsi barədə (lazımi sənədlər toplusu hazırlanmaqla) müvafiq müqavilə bağlanılacaq və qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçiriləcəkdir.
7. Elmin İnkişafı Fondu 2014-cü ildə elan edilərək keçirilmiş əsas müsabiqəsinin kompleks elmi-tədqiqat proqramları üzrə layihələrin qaliblərini təbrik edir, müsabiqə iştirakçılarına və müstəqil elmi ekspertlərə minnətdarlığını bildirir.

***Elmin İnkişafı Fondunun icraçı direksiyası***